Məhəmməd Haşim Kəmali



# ŞƏRİƏTİN MƏQSƏDLƏRİ

*(Sadələşdirilmiş məlumat kitabçası)*

**Məhəmməd Haşim Kəmali**

# ŞƏRİƏTİN MƏQSƏDLƏRİ

## (Sadələşdirilmiş məlumat kitabçası)

Beynəlxalq İslam Fikri İnstitutu

“İdrak” İctimai Birliyi

Bakı – 2017

© Beynəlxalq İslam Fikri İnstitutu, 2017
© "İdrak" İctimai Birliyi, 2017

The International Institute of Islamic Thought (IIIT)
500 Grove St., Suite 200, Herndon, VA 20170
www.iiit.org

The International Institute of Islamic Thought (IIIT) (UK)
P.O. Box 126, Richmond, Surrey, TW9 2UD, United Kingdom
www.iiituk.com

"İdrak" İctimai Birliyi
AZ1100, Mirəli Seyidov 3138, D korpusu, 1-ci mərtəbə
www.idrak.org.az

ISBN: 978-9952-8333-1-7

Tərcüməçi, redaktor və şərhlərin müəllifi:
Fəlsəfə üzrə fəlsəfə doktoru Elvüsal Məmmədov

Bədii və texniki tərtibat:
Həsən Həsənov

Kitab Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin
icazəsi ilə nəşr olunur (DK-925/Q)

# ÖN SÖZ

Beynəlxalq İslam Fikri İnstitutu rəhbərliyi İslam qanunvericiliyinin əsas mövzularından hesab olunan Şəriətin məqsədlərinə (***məqasid***) həsr edilmiş bu soraq kitabçasına ön söz yazmaqdan qürur duyur.

Kitabın müəllifi doktor Məhəmməd Haşim Kəmali "məqasid" mövzusu üzrə bacarıqlı mütəxəssisdir.

Şəriətin məqsədlərinə dair ingilisdilli ədəbiyyatın məhdudluğunu nəzərə alan Beynəlxalq İslam Fikri İnstitutu bu boşluğu doldurmaq üçün sözügedən sahəyə dair tərcümə və orijinal kitabların nəşrinə köməklik göstərmişdir. Məqsəd ingilisdilli oxucuları bu mövzu ilə tanış etməkdir. İnstitut bu kitabla yanaşı, aşağıdakı kitabları da ingilis dilində nəşr edib:

- Məhəmməd Tahir ibn Aşur. Şəriətin məqsədləri;
- Əhməd Rəysuni. İmam Şatibinin şəriətin məqsədlərinə dair nəzəri görüşləri;
- Cəmaləddin Ətiyyə. Şəriətin məqsədlərinin canlandırılmasına doğru;
- Casir Övdə. Şəriətin məqsədləri: islam qanunvericiliyi fəlsəfəsi (sistemli baxış).

“Məqasid” mövzusu mürəkkəb olub, zehni problemləri əhatə etdiyindən və bu mövzuda nəşr edilmiş kitabların çoxu əsasən mütəxəssislər üçün nəzərdə tutulduğundan institutun London ofisi sadələşdirilmiş seriya kitabçalarının hazırlanıb oxuculara təqdim edilməsinə böyük əhəmiyyət verir. Ofis istəyir ki, bu kitabçalar adi oxucunu yormayacaq asan materialları ehtiva edən vəsait rolunu oynasın.

Seriya kitabçalarına bu kitabla yanaşı, doktor Casir Övdənin “Şəriətin məqsədləri (yeni başlayanlar üçün)” və doktor Məhəmməd Ömər Şabranın “İnkişafın islam modeli: “məqasid” konsepsiyası əsasında” kitabları[1] da daxildir. Hər iki kitab ərəb dilinə tərcümə edilmişdir.

Beynəlxalq İslam Fikri İnstitutu

London ofisinin akademik müşaviri:

Ənəs Şeyx Əli

İyun 2010-cu il

---

[1] Hər iki kitabça tərəfimizdən Azərbaycan dilinə tərcümə olunaraq nəşr edilmiş və əziz oxucuların istifadəsinə verilmişdir – ***tərcüməçinin qeydi.***

## Şəriətin məqsədləri islam qanunvericiliyinin məqsədləri deməkdir

Bu tədqiqat beş başlıca fəsildən ibarətdir. Birinci fəsildə "məqasid"in tərifi və Qurani-Kərimdə öz əksini tapmış əsasları haqqında məlumat verilir. İkinci fəsildə "məqsədlər"in təsnifatı aparılmış, onların tərtibatındakı prioritetlər mövzusu işlənmişdir. Üçüncü fəsildə bu elmin keçdiyi tarixi mərhələlər, əsas nümayəndələri haqqında danışılır, xüsusən Əbu İshaq İbrahim əş-Şatibinin "məqasid" nəzəriyyəsinin meydana çıxmasında oynadığı rola toxunulur. "Məqsədlər"in nə olduğunu izah edərkən alimlərin istifadə etdikləri üsulların fərqləndirilməsi isə dördüncü fəslin mövzusunu əmələ gətirir. Sonuncu – beşinci fəsildə isə "məqsədlər"lə ictihad institutu arasındakı əlaqə izah olunur, ictihad əməliyyatlarının vüsət kəsb etməsində "məqsədşünaslıq" elminin töhfə verə biləcəyi sahələr göstərilir.

## Şəriətin məqsədləri ilə əlaqəli dini mətnlər

Məlumdur ki, Şəriətin məqsədləri müsəlman qanunvericiliyinin mühüm mövzularından biridir. Amma bu mövzuya indiyədək lazımi diqqət göstərilməmişdir. Ümumi götürdükdə, Şəriət fərd və cəmiyyətin maraqlarını (mənafeyini) əsas tutur. Hökmlər isə bu mənafeyi qorumaq, yer üzündə insanların həyat vəziyyətini yaxşılaşdırıb asanlaşdırmaq üçün mövcuddur. Qurani-Kərim bu məsələyə Həzrəti Məhəmmədin peyğəmbər göndərilməsinin əsas məqsədini açıb göstərərkən toxunur:

“Səni də (Ya rəsulum!) aləmlərə (bütün insanlara və cinlərə) ancaq bir rəhmət olaraq göndərdik” (əl-Ənbiya, 107).

Həmçinin biz bu cəhətə Quranın aşağıdakı təsvirində də rast gəlirik:

“(Ey insanlar!) Sizə rəbbinizdən bir öyüd-nəsihət, ürəklərdə olana (cəhalətə, şəkk-şübhəyə, nifaqa) bir şəfa, möminlərə hidayət və mərhəmət (Quran) gəlmişdir!” (Yunis, 57).

Digər ayələrdə və hədislərdə dinin iki başlıca məqsədi haqqında danışılır. Söhbət rəhmət və hidayətdən gedir. Hər iki məqsəddən söz düşərkən ədalət prinsipindən danışılır, ayrı-seçkiliyin, bir insanın digər insandan üstün tutulmasının yolverilməz məsələlər olduğu göstərilir.

Həmçinin Quran hökmləri və Sünnə ailədə, cəmiyyətdə köməkləşmə duyğusunun, həmrəylik və əməkdaşlığın möhkəmləndirilməsinə çağırış edir.

Ədalət ilahi rəhmətin təzahürlərindən biridir. Həmçinin o, Şəriətin məqsədlərindən birini əmələ gətirir. Allahın rəhməti mənafenin gerçəkləşməsində özünü göstərir, – alimlərə görə, Şəriətin başlıca tələbi və məqsədi elə budur. Mənafeni rəhmətin sinonimi hesab etmək mümkündür.

Fərdləri tərbiyə etmək də Şəriətin digər mühüm məqsədini təşkil edir. Bu, ədalət və mənafe məsələlərindən əhəmiyyəti baxımından heç də geri qalmır. Ədalət və mənafe sosial tələblər olub, məzmun baxımından, əsasən, ictimai münasibətlərdə əks olunur. Fərdin tərbiyə edilməsində məqsəd isə onu Şəriət dəyərlərinə sahib, etibarlı insana çevirməkdir. Şəriət fərdləri tərbiyə etməklə ictimai məqsədlərinin çoxunu həyata keçirməyi qarşısına məqsəd qoymuşdur. Xüsusən ibadət və əxlaq sahələrində bir çox hökmlərdəki ümumi məqsəd fərdi tərbiyə etməkdən ibarətdir. Bununla da Şəriət istəyir ki, fərd təqva keyfiyyətinə sahib olduqdan sonra insanlara yaxşılıq edən tərəfə çevrilsin[1].

Quranın bir çox ayəsində hökmlərin məqsəd və səmərəliliyi haqqında danışılır. Yəni, Qurani-Kərimdə göstərilir ki, əməllər

---

[1] Vəhbə Züheyli. Şəriətdə "zərurət" nəzəriyyəsi. Beyrut: "ər-Risalə", 1989, səh. 50.

müəyyən məqsədlərə xidmət edir. Quran kontekstini diqqətlə öyrəndikdə müşahidə edirik ki, "müamilat"[1] hökmləri müəyyən məqsədlərlə əlaqəlidir. Bu hala ibadət hökmlərində də rast gəlmək mümkündür. Məsələn, Quranda dəstəmazın necə alınmağı haqqında məlumat verildikdən sonra deyilir:

"Allah sizi çətinliyə salmaq istəməz, lakin O sizi pak, təmiz etmək və sizə olan nemətini tamamlamaq (artırmaq) istər..." (əl-Maidə, 6).

Namaza gəlincə, Quran buyurur:

"...Həqiqətən, namaz (insanı) çirkin və pis əməllərdən çəkindirər..." (əl-Ənkəbut, 45).

Həmçinin cihadda qarşıya qoyulmuş məqsəd haqqında oxuyuruq:

"Zülmə məruz qaldıqlarına görə vuruşanlara (kafirlərə qarşı Allah yolunda döyüşməyə) izin verilmişdir" (əl-Həcc, 39).

Deməli, cihadda məqsəd zülmə mane olmaq, namazda məqsəd ruhu saflaşdırmaq, əməlləri yaxşılaşdırmaqdır. Namazdan əvvəl dəstəmaz alıb fiziki paklığı təmin etməklə yanaşı, namaz qılan şəxs bunun sayəsində mənən təmizlənə bilir.

Qisas hökmünün nə üçün mövcud olmağı haqqında Quran ayəsində deyilir:

---

[1] İctimai münasibətləri ifadə edən hökmlər. Nikah, alış-veriş, varislik, müqavilələr və sair mövzulardan bəhs edən hökmlər "müamilat" adlanır – ***tərcüməçinin qeydi.***

“Ey ağıl sahibləri, qisasda (qisas hökmü) sizin üçün həyat vardır. Ola bilsin ki, (bununla) pis əməldən (qətldən) çəkinəsiniz” (əl-Bəqərə, 179).

Zəkatın vacib edilməyi Quranda bu cür əsaslandırılır:

“...Bu ona görədir ki, (həmin mal-dövlət) içərinizdəki zənginlər arasında əldən-ələ dolaşan bir sərvət olmasın (ondan yoxsullar da faydalansın)...” (əl-Həşr, 7).

Quranda möminlərə əmr olunur ki, zərif cinsin nümayəndələrinə baxmasınlar. Səbəb belə göstərilir:

“...Bu onlar üçün (ədəb-ərkan, təmizlik baxımından) daha yaxşıdır...” (ən-Nur, 30).

Quran və Sünnədən daha çox nümunə gətirmək mümkündür. Bu nümunələrdə Şəriət əmrlərinin ifadə etdiyi məqsəd və mənafe aydın üslubda göstərilmişdir. Oxucu eyni halı şər və fəsad əməllərinə dair bir çox ayədə müşahidə edəcəkdir. Bu ayələrdə xəbərdarlıq üslubu ilə həmin əməllərdən çəkinmək əmr olunur. Məqsəd zülmə, fəsada, qərəzliliyə əngəl olmaqdır.

Ticarət və ictimai münasibətlərdə Qurani-Kərim istismarı, faizi, inhisarçılığı, qumarı qadağan etmişdir. Çünki bütün bunlar zərərli olub, Şəriətin bazarda (alış-verişdə) insaflı münasibətləri ifadə edən hökmlərinə ziddir.

Ümumiyyətlə, bütün hökmlər geniş mənada mənfəəti təmin etmək məqsədi daşıyır. Məhz bu, "məqasid"ə dair tədqiqatlarda ən mühüm və başlıca cəhətdir. Ədalət də, fərdləri tərbiyə etmək də, əslində, mənfəət deməkdir. Bu səbəbdən deyə bilərik ki, "mənafelər" (***məsaleh***) "məqsədlər"in (***məqasid***) bir digər adıdır. Odur ki alimlər bu sözləri sinonim kimi istifadə etmişlər.

## “Məqsədlər”in təsnifi

Alimlər daha əhəmiyyətlisindən başlamaqla “məqsədlər”i üç kateqoriyada təsnif etmişlər. Ən üst kateqoriya “zərurətlər”dir (***zəruriyyat***). Zərurətlər vacib, lazımlı şeyləri ifadə edir. Sonrakı sırada “ehtiyaclar” (***haciyyat***) dayanır. Bunlar “zərurətlər”i tamamlayan “məqsədlər”dən ibarətdir. Üçüncü kateqoriyaya “yaxşılaşdırıcılar” və ya “gözəlləşdiricilər” (***təhsiniyyat***) daxildir. “Yaxşılaşdırıcılar” “ehtiyaclar” dərəcəsinə çatmayan və insanda (daha gözələ, yaxşıya, rahata...) meyl oyadan şeylərdir.

“Zərurətlər”, yəni zəruri əməllər, “məqsədlər” beş yerə bölünür: dinin, canın, nəslin, ağlın, mülkiyyətin qorunması. Bu “zərurətlər” həm ictimai, həm də fərdi həyatın yaxşı olmağı, mənəvi salamatlığının qorunması üçün lazımdır. Bu “məqsədlər” həyata keçirilməzsə, ictimai quruluş və həyat tənəzzülə uğrayar, xaos yaranar. Şəriət bu “məqsədlər”i qorumağı və möhkəmləndirməyi istəyir, bu istiqamətdə görüləcək bütün işlərə dəstək verir. Cihad dini qorumaq, qisas isə canı mühafizə etmək üçün mövcuddur. Onu da deyək ki, Şəriətdə bu məqsədləri təsdiqləyən, onları irəliyə aparan hökmlərlə yanaşı, onları pozanları cəzalandıran hökmlər də işlənib hazırlanmışdır. Oğurluq,

zina, şərab içmə elə günahlardır ki, onları edənlərə "hədd" cəzaları[1] verilir. Çünki bu günahlar təhlükə yaradır. Birincisi insanların şəxsi mülkiyyəti, ikincisi ailə həyatı, üçüncüsü isə zəkanın salamatlığı üçün təhlükədir.

Dəstək vermək baxımından digər sahələrdə Şəriət ticarət fəaliyyətinə təşviq edir. Bununla da, insan öz ruzisini qazanmağa həvəslənir. Şəriət bazar daxilində heç bir büdrəmə və əngəl olmadan qarşılıqlı ticarət fəaliyyətinin davamlılığında maraqlıdır.

Həmçinin ailə ilə əlaqədar hökmlərdə əsas məqsəd ailə institutunu qoruyan vasitələri təmin etməkdir. Çünki ailə fərdlər üçün təhlükəsiz sığınacaqdır.

Ümmətin mədəni-elmi inkişafı baş versin deyə Şəriət öyrənib öyrətməyə həvəsləndirir. Qısa şəkildə deyə bilərik ki, başlıca mənafeləri təmin etmək Şəriətin ümumi məzmununda mərkəzi yeri tutur. Bu ona görədir ki, Şəriətin bütün hökmləri bu və ya digər şəkildə həmin mənafelərin qorunması ilə əlaqəlidir. Və ya belə deyə bilərik: bu mənafelər Şəriətin başlıca "məqsədlər"ini ifadə edir.

İkinci kateqoriyadakı "məqsədlər" "ehtiyaclar" adlanır. Dediyimiz kimi, "ehtiyaclar" "zərurətlər"i tamamlayır. "Ehtiyaclar" ümumi quruluşa təhlükə yaradacaq həddə çatmadan çətinlik və məhrumiyyəti

---

[1] **Hədd cəzası**: Şəriətdə forması və məzmunu konkret olaraq göstərilmiş cəza növü. Məsələn, zina, oğurluq, sərxoşluq, namuslu qadınlara iftira kimi günahlar üçün konkret cəza növləri vardır – ***tərcüməçinin qeydi***.

aradan qaldırmağı məqsəd güdən “mənafelər”dir. Bu kateqoriya özündə bir çox rüsxəti ehtiva edir (namazların qısaldılması, xəstə və ya səfərdə olanın oruc tutmamağı və s.). Bu rüsxətlər Şəriətin müsəlmanlara yaxşılığıdır. Məqsəd çətinliyi aradan qaldırmaqdır. Amma bu rüsxətlər “zərurətlər” dərəcəsində deyildir. Çünki insanlar məcbur qaldıqda rüsxətlərsiz yaşaya bilirlər. Vacib ibadət növlərinin, demək olar ki, hamısında rüsxətlər mövcuddur. Sosial münasibətlərə (***müamilat***) gəlincə, Şəriət müəyyən müstəsna müqavilələrə (faiz satışı, icarə müqaviləsi və s.) icazə vermişdir. Çünki insanların bu iki müqavilə növünə ehtiyacları vardır. Halbuki bu müqavilələr, dediyimiz kimi, hökmlərin ümumi korpusuna müəyyən qədər əksdir. Həmçinin ailə ilə əlaqəli hökmlərdə zərurət yarandıqda boşanmağa icazə verilib. Bu da bir rüsxətdir. Əslində bu rüsxətlə ailəni dözülməz konfliktdən qorumaq məqsədi güdülür.

Əgər “ehtiyac” çox sayda insana, cəmiyyətə aid məsələdirsə, “zərurət”ə çevrilir. Bunu aşağıdakı misalla izah edək: icarə müqaviləsinin mötəbərliyi ona əməl edən fərd üçün ikinci dərəcəli əhəmiyyət daşıya bilər. Amma cəmiyyət üçün bu müqavilənin əhəmiyyəti “zərurət” ifadə edir. Həmçinin islamın ibadət sahəsində qoyduğu bəzi rüsxətlər, ola bilsin ki, fərdin ölüm-qalımı üçün ikinci, amma cəmiyyətin ölüm-qalımında birinci dərəcəli əhəmiyyət daşısın. Əgər müxtəlif kateqoriyalara aid “mənafelər” bir-biri ilə toqquşarsa,

üstünlük ali "mənafe"yə verilir. Yox, əgər müxtəlif "mənafelər" toqquşarsa və bizə onlardan hansının daha əhəmiyyətli olmağı qəti şəkildə məlum deyildirsə, onda "zərəri uzaqlaşdırma" (***dər`i-məfsədə***) mənafeni təmin etməkdən (***cəlbi-mənfəə***) əvvəl gəlir[1]. Səbəb budur ki, Şəriəti, hər şeydən əvvəl, şəri aradan qaldırmaq maraqlandırır. Aşağıdakı hədisdən bu aydın görünür. Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* buyurmuşdur:

"Sizə bir şeyi əmr etsəm, ona bacardığınız qədər əməl edin. Yox, sizə nəyisə qadağan etsəm, ondan uzaq durun"[2].

Üçüncü kateqoriya "mənafelər"ə, yəni "gözəlləşdiricilər"ə gəlincə, dediyimiz kimi, insanda meyl oyadan, arzu edilən şeylərdir. Məqsəd ikinci dərəcəli "yaxşılaşdırıcı" elementləri əldə etmək, gündəlik vərdiş və davranışlarda bitkin olmaqdır. Məsələn, Şəriət namazda bədən və geyim təmizliyinə təşviq edir, fərddən cümə namazı üçün ətirlənməsini istəyir. Həmçinin islam müsəlmanlara qadağa qoyur ki, cümə namazına gedərkən sarımsaq yeməsinlər. Bir misal daha: Şəriət müsəlmanları zəkatdan əlavə daha çox sədəqə verməyə, gündəlik vacib namazlarla yanaşı nafilə (sünnə) namazlar qılmağa həvəsləndirir. Eyni hala ictimai münasibətlərdə də rast gəlirik. Quran və

---

[1] Yusif əl-Qərdavi. İslam şəriəti araşdırmalarına giriş. Qahirə: "Vəhbə", 1990, səh. 70-71.

[2] Hədisi Nəsai rəvayət etmişdir. Bax: "Sünən" kitabı, "Həcc ayinləri" babı, "Həccin vacib edilməsi" bölümü.

Sünnə mehribanlığa, xoş danışığa, yaxşılığa, gözəl əxlaqa təşviq edir. Həmçinin qazı və hakimlərdən tələb olunur ki, dərhal cəza kəsməyə can atmasınlar. Bütün bunlar arzu edilən işlərdəndir. Bunda məqsəd bütün tərəfləri ilə xoş və bitkin həyat yaratmaqdır.

Bəlkə də, bu kateqoriyadan olan "mənafelər"in xüsusi əhəmiyyəti vardır. Bu "mənafelər" digər "mənafelər"lə əlaqəlidir. Elə olur ki, insan vacib namazları müxtəlif cürə icra edir. Məsələn, fikri bəzən namazda olur, bəzən olmur; bəzən hər bir rüknünü diqqətlə icra edir, xatircəmlik içərisində olur, bəzən də tələsərək, düşüncəsi dağınıq namaz qılır. Namazını tam şəkildə qılanla qılmayanın fərqi məlumdur. Birincisi vacib və əsas olanı, arzulananı etmiş, ikincisi isə, hər bir halda, namaz qılmamaq günahından xilas olmuşdur. Bu məntiq, demək olar ki, hər bir davranışa, Şəriətin istənilən hökmünə riayətə şamil olunur.

"Məqsədlər"in başqa təsnifatı da vardır: ümumi və xüsusi "məqsədlər". Birincisi islam və Şəriət üçün səciyyəvi sayılan universal məqsədlərdir. Məsələn, zərəri dəf etmək Şəriətin ümumi məqsədi olub, hər bir işə, şeyə şamildir. Xüsusi "məqsədlər"ə isə ailə, maliyyə məsələləri, iş münasibətləri, şahidlik, münsiflik və sair daxildir.

Digər təsnifatda qəti və zənn ifadə edən "məqsədlər"dən danışılır. Qəti "məqsəd" odur ki, Quranda və Sünnədə ona dair açıq-aydın dəlillər mövcuddur. Mülkiyyətin, insanların nüfuzunun qorunması,

maliyyə yardımında qohum-əqrəbanın haqqı və sair belə "məqsədlər"dəndir. Amma "məqsədlər" təxmin ifadə edərsə, məsələn, birisi desə ki, az miqdarda şərabın haramlılığı çox miqdar şərabın haramlılığı kimidir və Allah bunu nəzərdə tutmuşdur, bu yanaşma şübhəli görünəcəkdir. Çünki az miqdarda şərab bəzən sərxoş etmir və sərxoşetmə şərabın haram edilməsinə dair söhbətlərdə həlledici amil kimi çıxış edir. Bununla da, birinci haldakı haramlılıq ikinci haldakından aşağı dərəcədə olacaqdır.

Şatibi məqsədləri təsnif edərkən "Şəriətqoyanın məqsədləri" və "mükəlləfin məqsədləri"ni göstərir. İnsanlar üçün yaxşı həyat təmin etmək birinciyə misaldır. Bu, Allah Təalanın hökmlərdə əks olunmuş ən bariz məqsədidir. Mükəlləfin, yəni insanın məqsədi isə gündəlik ruzi qazanmaq üçün işləməsidir.

Digər təsnifatda "məqsədlər" aşağıdakı növlərə ayrılır: a) özlüyündə (birbaşa); b) başqa "məqsədlər" üçün arzu edilən (əlaqəli). Birinci növə başlıca ölçü-məqsədlər daxildir. Söhbət ya Allahın, ya da insanın əsil olaraq nəzərdə tutduğu "məqsədlər"dən gedir. Bu "məqsədlər" Şəriət hökmlərinin nəzərə alınmasında əsas olaraq çıxış edir. İnsanlar düşüncələrində, fəaliyyət və davranışlarında onları nəzərə almalıdırlar. Məsələn, öyrənmək və öyrətmək başlıca məqsəddir, çünki insan bununla rəbbini tanıyır, Ona düzgün şəkildə ibadət etməyi öyrənir, Onun yaratdıqlarını düzgün dərk edir.

Həmçinin evlilikdə başlıca məqsəd törəyib-artmaq, dərslərdə iştirakda isə bilikləri artırmaqdır.

İkinci dərəcəli – əlaqəli "məqsədlər"ə gəlincə, başlıca "məqsədlər"i tamamlayır. Məsələn, evlənmədə ikinci dərəcəli "məqsəd" sevgi və cinsi münasibət, təhsil almada diplom əldə etmək, vəziyyəti yaxşılaşdırmaq, ünsiyyət və davranış qabiliyyətini inkişaf etdirməkdir[1].

"Zərurətlər"lə açıq şəkildə əlaqəsi olan "məqsədlər" qəti "məqsədlər" hesab olunur. Mənası aydın dini mətnlərin təhlili nəticəsində təsis edilmiş "məqsədlər" də yuxarıdakı kateqoriyaya daxildir. Bu iki qateqoriyaya daxil olmayan "məqsədlər"ə gəlincə, onlar o halda "qəti" qəbul edilir ki, "icma"[2] və fiqh tərəfindən təsdiqlənsin. Bu kateqoriyaya aid olmayan izafi "məqsədlər" isə zənn ifadə edir, təsdiqləyici "icma" və ya fihi dəlillər olmadıqca qətilik kəsb etmir. Qəti və zənn ifadə edən "məqsədlər" bir-birinə zidd düşdükdə üstünlük birincilərə verilir.

Qəti "məqsədlər" çərçivəsində ardıcıllığın öz qaydası vardır. Dini və canı qoruyan "məqsədlər" digər üç "məqsəd"dən (bax: "zəru-

---

[1] Əbu İshaq İbrahim əş-Şatibi. Şəriətin ana məsələlərində uyğunluqlar (əl-Müvafəqat fi üsul əş-şəriət) / çapa hazırlayan: Şeyx Abdullah Draz. Qahirə: "əl-Məktəbə ət-ticariyyə əl-kübra" (nəşr tarixi göstərilməyib), IV cild, səh. 179.

[2] **İcma**: İslam alimlərinin dini bir məsələnin şəriət statusu ətrafında yekdil qərara gəlmələri və bütün müsəlmanların bu qərarı həmrəyliklə qəbul etmələrini ifadə edən termin; konsensus; müsəlman hüququnun (fiqhin) üç mənbəyindən biri. Azərbaycan dilindəki "icma" sözü ilə qarışıq salınmamalıdır – ***tərcüməçinin qeydi***.

rətlər") əvvəl gəlir. Digər üç "məqsəd"də isə ardıcıllıq belədir: ailənin qorunması → ağılın qorunması → mülkiyyətin qorunması.

Əsas (kök) və ikinci dərəcəli (törəmə) prioritetlərin də öz sıralanması vardır. Əsas "məqsədlər"də birincilik tamamlayıcı (təkmilləşdirici) məsələlərə verilir. Birinci və ikincilərdən sonra "müstəhəb"[1] əməllərlə əlaqəli "məqsədlər" gəlir.

Bütün bunlardan sonra mühüm sualla qarşılaşırıq: "məqsədlər"i düzgün şəkildə necə sıralaya bilərik? "Məqsədlər" və ya "mənafelər" sərbəst məsələlərdir, onların sistemləşdirilməsi, kateqoriyalara daxil edilməsi üçün konkret qaydalara ehtiyac vardır. Çünki bu və ya digər "məqsəd"in kateqoriyasını müəyyən edərkən subyektiv yanaşma, qərəzlilik öz sözünü deyir. Problemi həll etmək üçün mövzunu yaxşı başa düşmək lazımdır. Onu da deyək ki, kollektiv ictihad və məsləhətləşmə ilə "məqsədlər"i dəqiq və düzgün şəkildə müəyyənləşdirmək mümkündür. Tədqiqatçı "məqsədlər"in düzgün müəyyən edilməsi məsələsində alimlər şurasının tövsiyə və razılığı ilə hərəkət etdikdə gəlinən nəticə də müsbət olur, münasib istiqamət planı hazırlanır. Belə bir şura Qanunvericilik şurasından təşkil edilmiş daimi komissiya yarada bilər. Şəriəti, müxtəlif sahələri yaxşı bilən mütəxəssislərdən ibarət bu komissiyanın vəzifəsi "məqsədlər"i

---

[1] **Müstəhəb:** hərf. arzu edilən. Şəriət baxımından icrası vacib sayılmasa da, bəyənilən, xoş qarşılanan əməllər (yemək, içmək, yatmaq, gül qoxulamaq və sair) – ***tərcüməçinin qeydi.***

öyrənib müəyyənləşdirmək, düzgün təkliflər irəli sürmək olmalıdır. Komissiya qanunvericilik qurumu ilə əməkdaşlıq çərçivəsində fəaliyyət göstərməlidir.

## "Məqsədşünaslığ"ın tarixi

“Məqsədlər” mövzusu Şəriətlə əlaqəli olub, erkən dövr fəqihləri tərəfindən lazımi şəkildə öyrənilməmişdir. Bu səbəbdən deyə bilərik ki, “məqsədlər”ə aid tədqiqatlar müsəlman məzhəblərinin fiqhi irsinə sonradan daxil edilmişdir. Hətta fiqhin əsasları fənninin tədrisi üçün təsdiqlənmiş bir çox kitabda “məqsədlər” müəyyən mövzuların daxilində öyrənilir. Buna səbəb, haradasa, mövzunun özünəməxsusluğudur. Çünki o, qanunvericilik fəlsəfəsi ilə əhəmiyyətli dərəcədə əlaqəlidir. “Məqsədşünaslıq” ixtisaslı fiqh mövzularını deyil, “məqsədlər”i öyrənir. Bu səbəbdən “məqsədlər” – ayrıca sahə olsa da – ictihadla əlaqəlidir. Lakin mövzu ilə əlaqəli araşdırmalar ictihad nəzəriyyəsinə dair tədqiqatlar kontekstində lazımi diqqət görməmişdir.

İslam fiqh təfəkkürü vəhy mətnlərinin zahirini əsas götürür. Fiqhin əsasları elmi (üsuli-fiqh) bu məqsədlə təsis edilmişdir. Dini mətnlərin zahirini əsas götürmək “Rəy əhli”[1] fəqihlərindən çox “Hə-

[1] Hərf. rəy tərəfdarları. Vəhyə əsaslanan biliklə yanaşı, rasional üsullara kəsb edilən biliyə də etimad göstərən məktəb. Bu məktəbin davamçıları Onlar həm dini mətnləri bilik mənbəyi olaraq qəbul edir, həm də ayə və hədislərdə münasibət bildirilməyən problemlərin rəy və ictihad yolu ilə həll ediləcəyinə inanırdılar. İslam fiqhi tarixindən məlumdur ki, bəzi səhabələr: Əli, Ömər, Muaz ibn Cəbəl, Abdullah ibn Məsud dini mətnlərin hərfi mənalarından yapışmamış, rəy bayrağının daşıyıcıları olmuşlar. Onlar dinin ruhunu, məqsədlərini dərindən başa düşmüşdülər.

dis əhli"[1] fəqihlərinə xasdır. Hədis əhli fəqihləri Şəriəti mükəlləfə[2] aid qaydalar, əmr və qadağalar məcmusu olaraq nəzərdən keçirirdilər. Onlara görə, mükəlləfin etməli olduğu hər bir şeyə dair dini mətnlər mövcuddur və bu dini mətnlərə uyğun hərəkət etmək lazımdır. Amma böyük səhabələrin metodu göstərir ki, onların nəzərində Şəriət əmr və dəyərlərin müəyyən korpusundan ibarət olmuşdur. Bu səhabələrə görə, əmrlər aidiyyəti ali dəyərlərin konkret şəkildə tətbiqi formalarıdır.

Xülasə, ilk üç əsrdə vəhyi mətnləri əsas götürən fəqihlər Şəriətin "məqsədlər"inə lazımi əhəmiyyət verməmişlər. Bu mövzu sonralar İmam Qəzali (vəfatı – 1111) və Şatibinin (vəfatı – 1388) yaradıcılığında ətraflı şəkildə araşdırılmışdır. Onlar "məqasid" nəzəriyyəsinin formalaşmasında mühüm rol oynamışlar.

---

Sonralar bu metoda bəzi böyük tabein nümayəndələri sahib çıxmışdılar. lakin bu məktəb daha çox hənəfilik məzhəbi adı ilə tanınır. "Əhli-rəy" məktəbinin əsas nümayəndələri Əbu Hənifə, şagirdləri İmam Məhəmməd və İmam Əbu Yusif idi – ***tərcüməçinin qeydi.***

[1] Hərf. hədis tərəfdarları. Orta əsr islam fikrində meydana çıxan, dini mətnlərin məntiqi-bədii məzmununa əhəmiyyət verməyən, forma ilə kifayətlənib bəşəri rəyə etimad göstərməyən məktəb. Bu məktəbin başlanğıcı Peyğəmbərin vəfatından sonraya, səhabələrin yaşadıqları dövrə gedib çıxır. Nəql olunur ki, səhabələrin çoxu rəy əsasında fitva verməmiş, barəsində dini mətnlərin susduğu məsələlərdə danışmamağı üstün tutmuşlar. Tabein dövründə bu məktəbin başında Səid ibn əl-Müseyyib dururdu. Ondan sonra bu ənənəni müxtəlif ölkələrdə fəqihlərdən Amir Şə`bi, Süfyan Sövri, Leys ibn Sə`d, Davud Zahiri, İmam Övzai və başqaları davam etdirmişlər – ***tərcüməçinin qeydi.***

[2] Yaş, dərrakə... baxımından dini öhdəlikləri icra şərtlərinə cavab verən şəxs, öhdəçi – ***tərcüməçinin qeydi.***

Böyük fiqhi məzhəblərdə "məqasid" nəzəriyyəsinə əhəmiyyətli dərəcədə yer ayrılmamışdır. "Məqsədlər" hakim fiqh metodologiyasında ikinci dərəcəli məsələ olaraq qalmışdır. "Məqasid" nəzəriyyəsinin fiqhin əsasları (üsuli-fiqh) kitablarındakı mövzular arasında tutduğu "darısqal" yer də bunu göstərir. Amma zahiri fəqihləri bildirirdilər ki, əlaqədar dini mətn mövcuddursa, "məqsədlər"ə əsaslanmaq olar. Yəni, əgər bu və ya digər dini mətndə hər hansı bir "məqsəd"dən açıq şəkildə söz açılıbsa, belə "məqsəd"i dəlil seçmək mümkündür. Buna baxmayaraq, əksər fəqihlər "məqsədlər"i mənası aydın dini mətnlərlə şərtləndirməmişlər. Onlar müşahidə etmişdilər ki, Şəriət insan ağlına xitab edir, dinin hökmləri müəyyən səbəb və məqsədlərlə əlaqəlidir. Öyrənmə, araşdırma yolu ilə bu səbəb və məqsədləri aşkara çıxarmaq mümkündür. Alimlərə məlum idi ki, Şəriətin "məqsədlər"i və fəlsəfəsinə zidd düşən şeylərdə israr göstərmək olmaz.

Zahirilərə əks mövqedən çıxış edən məktəb "batinilik" məktəbi olmuşdur. Batinilər iddia edirdilər ki, Şəriətin mahiyyəti və dini mətnlərdəki məqsədlər onların zahiri məzmununda deyil, batini mənasında əks olunmuşdur[1].

---

[1] Əhməd ər-Rəysuni. İmam Şatibinin "məqasid" nəzəriyyəsi. Ribat: "ən-Nəcah", 1991, səh. 149.

Digər tərəfdən, məzhəb alimləri “məqasid” mövzusuna eyni dərəcədə müraciət etməmişdilər. Bəzi fəqihlərin mövqeyi daha konkret olmuşdur. Lakin mövzunun ətraflı öyrənilməsinə təşviq yox idi. Bu cür münasibət dolaşıq olub, Quranın yanaşması ilə üst-üstə düşmür. Çünki Quranda hökmlərin gizli məqsədlərinin üzə çıxarılmasına aşkar maraq vardır. Bəzən də Quran konkret, aydın sözlərlə hökmlərin səbəb və məqsədlərini açıb göstərir. Ümumiyyətlə, alimlərin “məqasid” mövzusunda susqun qalmalarına “məqsədlər”i müəyyənləşdirərkən yanılmaq qorxusu səbəb olmuşdur. Haqlı olaraq sual meydana çıxır: bir insan təxminə əsaslanaraq necə əmin ola bilər ki, filan-filan şeylər Allahın nəzərdə tutduğu şeylərdir? Təbii ki, "məqsədlər"in açıq-aydın göstərildiyi dini mətnlərə istinad başqadır! Həmçinin həmin mətnlərdə göstərilmiş "məqsədlər" məhduddur, odur ki digər məsələlərdə "məqsədlər"i üzə çıxarmaq necə olsun bəs?! Biz bu məsələni aşağıda izah edəcəyik.

Ümumiyyətlə, “məqasid” (məqsədlər) sözünə hicri IV əsrin əvvəllərinədək fiqhi ədəbiyyatda rast gəlinmir. Bu sözü ilk dəfə Əbu Abdullah ət-Tirmizi əl-Həkim (vəfatı – 922) işlətmişdir. Sonralar “məqasid” sözünə İmamülhərəmeyn əl-Cüveyninin (vəfatı – 1085) yaradıcılığında bir çox yerdə rast gəlirik. Elə düşünürük ki, "məqsədlər"i ilk dəfə “zərurətlər”, “ehtiyaclar” və “yaxşılaşdırıclar” kimi təsnif edən Cüveyni olmuşdur. Bu təsnifatdan indiyədək istifa-

də olunur. Cüveyninin tələbəsi Əbu Hamid əl-Qəzali müəlliminin fikirlərini daha da inkişaf etdirmiş, "ümumi mənafe" və "səbəbləri göstərmə" məsələlərini özünün "Şəfa əl-ğəlil", "əl-Müstəsfa" kitablarında ətraflı şəkildə öyrənmişdir. Qəzali "mənafe"nin dəlil olaraq göstərilməsini tənqid edir, amma Şəriətin məqsədlərini qüvvətləndirəcəyi təqdirdə ondan istifadəni caiz[1] görürdü. "Məqsədlər" mövzusuna gəlincə, Qəzali bildirmişdi ki, Şəriət beş məqsədə can atır: dinin qorunması, canın qorunması, ağlın qorunması, nəslin qorunması, var-dövlətin (mülkiyyətin) qorunması. Hər şeydən əvvəl məhz bu beşliyə əməl etmək lazımdır[2].

Sonrakı dövrdə bir sıra görkəmli alimlər "məqsədlər" mövzusuna öz töhfələrini vermişlər. Düzdür, qələmə aldıqları kitablarda dəyişməz xətlə getmək müşayiət olunmur, amma buna baxmayaraq, həmin kitablar "məqasid" təliminin inkişafında mühüm rol oynamışdır. Məsələn, Seyfəddin əl-Amədi (vəfatı – 1233) bu qənaətə gəlmişdi ki, bir qiyas digər qiyasa zidd olduqda "məqsədlər" seçim meyarı vəzifəsini daşıyır. O, müxtəlif "məqasid" kateqoriyaları arasında birinciliyin (prioritetlərin) müəyyən edilməsinə dair müfəssəl əsər yazmışdır. Amədi "zəruri məqsədlər"in sayını beş göstərmişdir. Amma maliki fəqihi Şihabəddin əl-Qərafi (vəfatı – 1285) bu beşliyə

[1] icazəli
[2] Əbu Hamid Məhəmməd əl-Qəzali. əl-Müstəsfa min elm əl-üsul. Qahirə: "əl-Məktəbə ət-ticariyyə", 1937, I cild, səh. 287.

altıncı məqsədi – namusun (ismətin) qorunmasını əlavə etmişdi. Onun bu əlavəsini sonralar Tacəddin Əbdülvəhhab ibn əs-Sübki (vəfatı – 1370) və Məhəmməd ibn Əli əş-Şövkani (vəfatı – 1834) təsdiqləmişlər. Məlumdur ki, beş zəruri "məqsəd"i özündə birləşdirən siyahı Quran ayələrindən çıxarılan nəticələr əsasında tərtib edilib. Belə ki Quranda “hədd” cəzaları göstərilmişdir. “Hədd” cəzaları müəyyən günahlara görə Allah tərəfindən təyin edilmiş cəzalardır. Alimlər başa düşmüşdülər ki, “hədd” cəzaları ilə qorunan şeylər əsas və əhəmiyyətli şeylərdir. Sonradan əlavə edilmiş altıncı zərurətə – namusun qorunmasına gəlincə, alimlərə ilk başda elə gəlmişdi ki, bu, “nəslin qorunması” məsələsi daxilində nəzərdən keçirilməlidir. Amma altıncı zərurəti ayrıca zərurət kimi göstərənlərin dəlili bu idi ki, Şəriətdə namuslu insanlara böhtan atmağa görə “hədd” cəzası müəyyən edilib. Bu, onlara görə, altıncı zərurəti təsdiqləyən əsas dəlildir[1].

Həmçinin İzzəddin Abdussalam əs-Süləmi (vəfatı – 1262) “məqasid” mövzusuna əhəmiyyətli kitab həsr etmişdir. Bu kitab “İnsanların mənafeyinə dair hökmlərin qaydaları” (Qəvaid əl-əhkam fi məsalih əl-ənam) adlanır. O bu kitabda hökmlərin məqsədlərini əvvəlki müəlliflərlə müqayisədə daha ətraflı araşdırmış, "məqsədlər"lə

[1] Yusif əl-Qərdavi. İslam şəriəti araşdırmalarına giriş. Qahirə: “Vəhbə”, 1990, səh. 73.

əlaqəli müxtəlif məsələlərə, xüsusən "səbəb" (***illət***) və "mənafe" (fayda – ***məsləhət***) mövzularına toxunmuşdur. O, kitabının əvvəlində yazırdı: "Quranın ən başlıca məqsədlərindən biri fayda və kəsb vasitələrini bir-birinə əlçatan etməkdir. Faydanı təmin etmək zərərin dəf edilməsinə zəmanət verir"[1]. Süləmi göstərirdi ki, Şəriətin bütün tapşırıqları (əmr və qadağalar) dünyada və axirətdə insanların mənafeyinin təmin edilməsi üçündür. Allah ali olduğu üçün öz mənafeyini düşünməz, bəndələrinin itaəti ona fayda verməz. Allah bütün bunlardan uzaqdır; Ona asilərin asiliyi zərər toxundurmaz, itaətkarların mütiliyi də fayda verməz. Bu o deməkdir ki, Şəriət hər bir hökmündə insanların mənafeyini düşünür.

İlk dəfə olaraq Təqiyyəddin ibn Teymiyyə (vəfatı – 1328) Şəriətin məqsədlərinin konkret sayla (beş və ya altı) məhdudlaşdırılmasının doğru olmadığını bildirmişdi. O, məlum siyahıya müqavilələrə sadiq qalmaq, qohumluq əlaqələrini qoruyub saxlamaq, qonşuluq hüquqlarına əməl etmək kimi dünyəvi məsələləri, Allahı sevmək, ixlas, dürüstlük, gözəl əxlaq kimi axirətlə əlaqəli məsələləri əlavə etmişdi.[2] Göründüyü kimi, İbn Teymiyyə "məqsədlər"in konkret, qapalı siyahısını bir neçə dəyər əlavə etməklə açıq siyahıya çevirmişdir.

---

[1] İzzəddin ibn Abdussalam əs-Süləmi. İnsanların mənafeyinə dair hökmlərin qaydaları (Qəvaid əl-əhkam fi məsalih əl-ənam) // tədqiq edib çapa hazırlayan: Taha Abdurrauf Səd. Qahirə: "əl-Hüseyniyyə", hicri 1351, I cild, səh. 8.

[2] Təqiyyəddin ibn Teymiyyə. Şeyxülislam ibn Teymiyyənin fitvaları // toplayan: Əbdürrəhman ibn Qasim. Beyrut: "ər-Risalə", hicri 1398, XXXII cild, səh. 134.

Onun bu mövqeyi dövrümüzdə Əhməd Rəysuni, Yusif əl-Qərdavi və digər tədqiqatçılar tərəfindən bəyənilmişdir[1]. Yusif əl-Qərdavi "məqsədlər"in siyahısına sosial həmrəylik, azadlıq, insanın şərəf-izzəti, bəşəri qardaşlıq kimi məsələləri daxil etmiş, onları başlıca "məqsədlər"dən saymışdır[2]. Şübhə yoxdur ki, bu əlavələr Quran və Sünnədən gətirilmiş ümumi və təfsilatlı dəlillərlə təsdiqlənmişdir.

Bizə gəlincə, iqtisadi inkişaf, elm və texnologiyada tərəqqi, tədqiqatların aparılmasını da zəruri "məqsədlər"dən hesab edirik. Ümmətin digər millətlər arasında öz yerini isbatlaması üçün yuxarıdakı iki məsələ çox zəruridir.

Yuxarıdakı icmaldan məlum olur ki, Şəriətin məqsədləri əlavələr üçün açıqdır və bu əlavələr hər bir dövrün prioritetlərinə əsaslanmalıdır.

---

[1] Əhməd ər-Rəysuni. İmam Şatibinin "məqasid" nəzəriyyəsi. Ribat: "ən-Nəcah", 1991, səh. 44.

[2] Yusif əl-Qərdavi. İslam şəriəti araşdırmalarına giriş. Qahirə: "Vəhbə", 1990, səh. 75.

## “Məqsədlər”in müəyyən edilməsi

Bundan əvvəl qeyd etmişdik ki, alimlər “məqsədlər”in ayırd edilməsinə dair müxtəlif üsullar təqdim etmişlər. Birinci üsul dini mətnlərə söykənir. Bu üsul “məqsədlər”in müəyyənləşdirilməsini mənası aydın dini mətndəki dəlillə şərtləndirir. Bir dini mətndə konkret əmr və ya qadağa mövcuddursa, həmin dini mətn “məqsədlər”in əsaslandığı dəlil (baza) rolunu oynayır. Bu o deməkdir ki, dini mətnlə şərtləndirmə formatının xaricində “məqsədlər” mövcud deyildir. Mənaca aydın elə dini mətnlər vardır ki, Allahın aşkar üslubla göstərdiyi “məqsəd”i ehtiva edir. Bəzi dini mətnlərdə isə hər hansı bir işdən saqındırma mövcuddur, – bu, mənfi "məqsədlər"dən birini ifadə edir. Yəni, saqındırmada məqsəd dini mətnin işarə etdiyi şərə əngəl olmaqdır. "Məqsədlər"in müəyyənləşdirilməsində dini mətnlərə söykənən üsulun ümumi məzmunu bundan ibarətdir.

Amma bu məzmun yeknəsəq olmayıb, müəyyən yarımüsulları özündə birləşdirir. Əgər zahirilər “məqsədlər”i müəyyən edərkən aydın mənalı dini mətnlərin məzmununu əsas götürürlərsə, əksər

fəqihlər həm dini mətnin özünü, həm də onun ifadə etdiyi səbəbləri nəzərə alırlar[1].

"Məqasid" mövzusunu ciddi şəkildə tədqiq edən alimlərdən hesab olunan Şatibi bildirirdi ki, birbaşa əmrlərin öz yeri vardır və buna ehtiram bəsləmək lazımdır. Amma Şatibi xəbərdar edirdi ki, mənası aydın dini mətnlərdən "yapışmaq" donuqluğa (ətalətə) səbəb olmamalı, sözləri və cümlələri tədqiq etməklə dini mətndəki gizli "səbəblər"in (mətləbin) aşkara çıxarılmasına əngəl yaratmamalıdır. Şatibi deyirdi ki, donuqluğun bu forması, əslində, Allahın nəzərdə tutduğuna zidd olub, mənası konkret dini mətnlərə etinasız yanaşmaqdır. Amma əmr və ya qadağa ifadə edən dini mətni səbəb və məqsədlər baxımından öyrənmək əsaslı hərəkət olub, Allahın nəzərdə tutduğu mətləbə uyğun düşür[2]. Şatibi izah edirdi ki, dini mətnlərin hərtərəfli şəkildə öyrənilməsi ilə şəxsin müəyyən etdiyi "məqsədlər" iki növdür: həqiqi (əsas) və asılı (ehtiyac səciyyəli). Həqiqi "məqsədlər" zəruri "məqsədlər"i bildirir. Mükəlləf[3] (öhdəçi) şəxs bu

---

[1] Əbu İshaq İbrahim əş-Şatibi. Şəriətin ana məsələlərində uyğunluqlar (əl-Müvafəqat fi üsul əş-şəriət) / çapa hazırlayan: Şeyx Abdullah Draz. Qahirə: "əl-Məktəbə ət-ticariyyə əl-kübra" (nəşr tarixi göstərilməyib), II cild, səh. 393.

[2] Əbu İshaq İbrahim əş-Şatibi. Şəriətin ana məsələlərində uyğunluqlar (əl-Müvafəqat fi üsul əş-şəriət) / çapa hazırlayan: Şeyx Abdullah Draz. Qahirə: "əl-Məktəbə ət-ticariyyə əl-kübra" (nəşr tarixi göstərilməyib), III cild, səh. 394.

[3] Mükəlləf – yaş, dərrakə... baxımından dini öhdəlikləri icra şərtlərinə cavab verən şəxs – ***tərcüməçinin qeydi.***

"məqsədlər"ə əməl etməlidir. Asılı "məqsədlər"də isə mükəlləf şəxs seçim edə bilir.

Dini mətnlərdəki əmrlərin hərtərəfli tədqiqi aşağıdakı sualları doğurmuşdur: Vacib və ya haram (əməl) onlarla əlaqəli əmrlərdə nəzərdə tutulmuş mətləbin (məqsədin) bir hissəsidirmi? Belə əmrlərin yerinə yetirilməsinə səbəb olan şey həmin əmrlərin bir hissəsi hesab oluna bilərmi?

Şəriətin mətnlərini tədqiq özü ilə başqa sual gətirmişdir: Əmrə zidd düşən əmrdən uzaq durmaq dini mətndə nəzərdə tutulan məqsədin (mətləbin, qayənin) ayrılmaz hissəsidirmi? Alimlərin bu cür suallara verdikləri cavabların ümumi məzmunu ondan ibarətdir ki, Şəriətin əmr və qadağalarının izafi (əlavə) cəhətləri dini mətndəki məqsədlərin (mətləbin) tərkib hissəsini əmələ gətirir. Onu da deyək ki, alimlər təfsilatlı məsələlərdə fikir ayrılığına düşmüşlər. Amma gəldikləri ümumi nəticə budur ki, Şəriətin əmrinə əks düşən şeyi etmək, bu əkslik isbat edilərsə, qadağandır. Şəriətin əksər əmrlərini asanlıqla başa düşmək mümkündür. Dini mətni öyrənməklə bu əmrlərdəki məqsədləri, onlara tərs düşən şeyləri müəyyənləşdirə bilirik. Bu səbəbdən deyirik: vacibi icra etmək üçün lazım gələn hər şey vacibdir.

Şatibi bu nəticəyə gəlmişdi ki, "məqsədlər"i tamamlayan, həyata keçirilməsinə xidmət edən hər şey "məqsədlər"dən sayılır. Amma

bu, Allahın münasibət bildirmədiyi vəziyyət və ya davranış haqqında sual yaradır. Xüsusən o halda ki, əlaqədar digər dini mətnləri ümumi məzmunu da həmin vəziyyəti izah etsin. Həmin sual belədir: Bilirik ki, "məqsədlər" Şəriət mətinlərindəki konkret əmrlər əsasında müəyyənləşdirilir. Bəs "məqsədlər"i dini mətnlərin ümumi məzmunundan "istiqra" üsulu[1] ilə müəyyən etmək mümkündürmü? Şatibinin cavabı köklü düşüncə tərzindən xəbər verir. Onun cavabı aşağıdakı kimidir:

Şatibi "istiqra"nı "məqsədlər"in müəyyənləşdirilməsində ən mühüm üsullardan biri hesab etmişdir. Məsələn, tədqiqatçı dini mətnlərdə hər hansı bir mövzuya bir neçə dəfə işarə edildiyini görə bilər. Amma bunların heç birində söhbətin həmin mövzudan getməsi açıq şəkildə göstərilməyib. Bununla yanaşı, aralarında həmin mövzunun qeyd edildiyi mövzuların ümumi kompleks ağırlığı sözügedən dini mətnlərdən "istiqra" üsulu ilə çıxarılan məna barəsində heç bir şəkk-şübhəyə yer qoymur. Başqa sözlə, tədqiqatçı əlaqədar ibarələri kompleks şəkildə öyrənməklə həlledici nəticəyə varır. Şatibi bu məsələni izah edərək deyirdi ki, Quranın heç yerində Şəriətin bəşəriyyətin mənafeyi üçün göndərilməsi haqqında açıq-aşkar

[1] İstiqra – hərf. hər hansı bir şeyin vəziyyəti və xüsusiyyətlərini öyrənmək üçün araşdırma aparma, zəhmət çəkmə. Ayrı-ayrı, xüsusi faktlardan ümumi nəticələr çıxarmaq üsulu; induktiv metod; bir bütünü ona aid bütün hissələri ilə bilmə; bir bütünün hissələrinə aid hökmə əsaslanaraq həmin bütün haqqında hökm vermək – ***tərcüməçinin qeydi.***

məlumat yoxdur. Buna baxmayaraq, bu, təsdiqlənmiş məsələdir. Biz bunu müxtəlif dini mətnləri kompleks şəkildə öyrənməklə müəyyən edirik[1]. Şatibi əlavə edir ki, "mənafelər"i geniş məzmunda başa düşmək lazımdır. Bu vaxt dünya və axirətlə, fərd və cəmiyyətlə əlaqəli, maddi və mənəvi, qısavədəli və faydası gələcək nəsillərə şamil olacaq "mənafelər" kompleks götürülməlidir. "Mənafelər"ə belə geniş məzmunda nəzər salmaq hər növ zərəri dəf etmək deməkdir. Bu "mənafelər"i insan ağlı həmişə öz gücü hesabına dərk edə bilməz, odur ki vəhyin təsdiqi və yolgöstərənliyinə ehtiyac vardır[2].

"Məqsədlər"in "zərurətlər", "ehtiyaclar" və "gözəlləşdiricilər" olaraq təsnif edilməsi, Allahın bizdən bu "məqsədlər"ə əməl etməyimizi istəməsi və digər məsələlər dinin mətnlərin öyrənilməsi nəticəsində alimlər tərəfindən müəyyən edilmişdir. Çünki dinin mətnlərdə yuxarıdakı təsnifat haqqında birbaşa göstərişə rast gəlinmir. Həmçinin Şəriətə görə, hər hansı ibadət formasını ictihad yolu

---

[1] Əbu İshaq İbrahim əş-Şatibi. Şəriətin ana məsələlərində uyğunluqlar (əl-Müvafəqat fi üsul əş-şəriət) / çapa hazırlayan: Şeyx Abdullah Draz. Qahirə: "əl-Məktəbə ət-ticariyyə əl-kübra" (nəşr tarixi göstərilməyib), II cild, səh. 6. Həmçinin bax: İbn əl-Qəyyim əl-Cövziyyə. Aləmlərin rəbbi adından yazanlara bildiriş (E`lam əl-müvəqqəin ən rəbb əl-aləmin) / tədqiq edib çapa hazırlayan: Məhəmməd Münir əd-Diməşqi. Qahirə: "əl-Müniriyyə" (nəşr tarixi göstərilməyib), I cild; Yusif əl-Qərdavi. İslam şəriəti araşdırmalarına giriş. Qahirə: "Vəhbə", 1990, səh. 58.

[2] Əbu İshaq İbrahim əş-Şatibi. Şəriətin ana məsələlərində uyğunluqlar (əl-Müvafəqat fi üsul əş-şəriət) / çapa hazırlayan: Şeyx Abdullah Draz. Qahirə: "əl-Məktəbə ət-ticariyyə əl-kübra" (nəşr tarixi göstərilməyib), I cild, səh. 243; Yusif əl-Qərdavi. İslam şəriəti araşdırmalarına giriş. Qahirə: "Vəhbə", 1990, səh. 64-65.

ilə müəyyən etmək mümkün deyildir. ("Məqasid"lə əlaqəli) bu deduktiv qayda mövzuya dair konkret göstərişin deyil, müfəssəl dəlillərin əsasında təsis edilmişdir. Çünki konkret göstəriş mövcud deyildir. Məlumdur ki, qeyd etdiyimiz bu prinsiplər ali prinsiplərdir, mötəbərliyində şübhə yoxdur, təxmin ifadə etmir[1].

Alimlər "istiqra" üsulundan istifadə etməklə belə bir nəticəyə gəliblər ki, beş zəruri "məqsəd"i: dini, canı, ağlı, mülkiyyəti, nəsli qorumaq Şəriətin prioritetidir. Çünki mənbələrdə bu beş məsələnin tərk edilməsinin vacibliyinə dair birbaşa göstəriş yoxdur.

Şatibinin deduktiv metodu təkcə "məqsəd" və dəyərləri müəyyənləşdirmir, həm də əmr və qadağaları əhatə edir. Əmr və qadağalara dair ya aydın mənalı dəlillər mövcuddur, ya da onlar müxtəlif kontekstli bir neçə dini mətnin kompleks şəkildə öyrənilməsi ilə təsis edilir[2].

Şatibi onu da qeyd eymişdir ki, deduktiv metodla əldə edilən qayda və hökmlər Şəriətin başlıca prinsip və məqsədləridir. Yəni, belə hökmlər birbaşa əmrlərdən daha əhəmiyyətlidir. Deməli, deduksiya

---

[1] Əbu İshaq İbrahim əş-Şatibi. Şəriətin ana məsələlərində uyğunluqlar (əl-Müvafəqat fi üsul əş-şəriət) / çapa hazırlayan: Şeyx Abdullah Draz. Qahirə: "əl-Məktəbə ət-ticariyyə əl-kübra" (nəşr tarixi göstərilməyib), II cild, səh. 49-51; Əbu İshaq İbrahim əş-Şatibi. Haqdan yapışma (əl-E`tisam). Məkkə: "ət-Ticariyyə" (çap ili göstərilməyib), II cild, səh. 131-135.

[2] Əbu İshaq İbrahim əş-Şatibi. Şəriətin ana məsələlərində uyğunluqlar (əl-Müvafəqat fi üsul əş-şəriət) / çapa hazırlayan: Şeyx Abdullah Draz. Qahirə: "əl-Məktəbə ət-ticariyyə əl-kübra" (nəşr tarixi göstərilməyib), III cild, səh. 148.

(***istiqra***) hökmlərin təsdiqlənməsinin başlıca metodudur. Şatibinin "məqasid" nəzəriyyəsində istifadə edilən metod məhz budur. Bu da onun "məqasid" sahəsində oynadığı əhəmiyyətli rolu göstərir.

Bir insanın şəxsiyyətinə dair bildiklərimizi nəzərdən keçirmək Şatibinin deduksiya metodunu daha yaxşı başa düşməyimizə kömək edəcəkdir. Zaman keçdikcə həmin insanın davranışlarını yaxından müşahidə edirik və bizdə ona dair biliklər formalaşır. Bu biliklər hərtərəfli yanaşma üsuluna əsaslanır. Hər hansı bir şəxsin gündəlik fəaliyyəti çərçivəsində ayrı-ayrı hadisələri müşahidə edərək qazandığı bilik ən bitkin bilikdir.

## Bəzi metodoloji problemlər

“Məqsədlər” mövzusunda aparılan tədqiqatlar yenidir. Quran və Sünnədən götürülən, fiqhi ictihad yolu ilə əldə edilən hökmlər “məqsədlər” və “dərəcələr”i ilə əlaqələndirilməyib. Məsələn, İbn Aşur qeyd edirdi ki, törəmə "məqsədlər"lə müqayisədə başlıca “məqsədlər”in müəyyənləşdirilməsi mövzusu lazımi şəkildə öyrənilməyib. Vasitə və ya qayə olaraq "məqsədlər"i ayırd etmək, yaxud digər "məqsədlər"in səbəbi rolunu oynayan "məqsədlər"i müəyyənləşdirmək tədqiqatlarda bir mövzu olaraq nadirən seçilmişdir. Bu barədə İzzəddin Abdusslamın “Hökmlərin qaydaları”, Şihabəddin əl-Qərafinin “Fərqlər” kitablarında cüzi məlumat vardır[1]. Bu sahədə atılan addımlar zəruri "məqsədlər"in beş və ya altı növdə təsnif edilməsindən ibarət olmuşdur. Digər “məqsədlər” – “ehtiyaclar” və “yaxşılaşdırıcılar” isə müəyyən edilib fərqləndirilməmişdi. “Məqsədlər”in bu üç kateqoriyada təsnifi mühüm olduğu kimi, onların fərqləndirilməsi də əhəmiyyətlidir.

Məsələ ilə əlaqədar olaraq belə bir sualın meydana çıxması mümkündür: Sözügedən təsnifata görə azadlıq və bərabərliyin statusu nədən ibarətdir? Cavab budur ki, məlum üçlü təsnifat belə mövzu-

---

[1] Məhəmməd ət-Tahir ibn Aşur. İslam şəriətinin məqsədləri. Tunis: “əl-İstiqamət”, 1966, səh. 331.

ların tədqiqi üçün münasib deyildir. Münasib olanı budur ki, belə mövzular "məqsədlər"in ikili: "kök" (əsas) və "törəmə" təsnifatı əsasında tədqiqat obyekti seçilsin. O da mümkündür ki, bərabərlik və azadlıq zəruri və ya "kök məqsədlər" mövzusu daxilində öyrənilsin. Həmçinin bu iki anlayışı bir çox kateqoriya daxilində öyrənmək mümkündür.

Qarşıya başqa suallar da çıxır: "Məqsədlər" baxımından azadlığın formalarını: məsələn, etiqad, yerdəyişmə, ifadə azadlığını necə öyrənmək olar?

Həmçinin nəsil mənsubiyyətinin (əsil-nəcabətin) qorunub saxlanılması ilə əlaqəli suallar da mövcuddur. Bildiyimiz kimi, nəslin qorunması zəruri "məqsədlər"dəndir. Evlilik hüququ nəslin qorunması üçün təsis edilib və bu, əsil-nəcabətin qorunması vasitəsidir. Elə isə bu məsələdə nəslin qorunması hökmünə əməl edilməlidirmi? Görəsən, bu hökm evlilik aktında şahidlərinin iştirakının vacibliyini də əhatə edirmi? Və ya bu hökm boşanma hüququnda nəslin qorunması məsələsini də özündə birləşdirirmi? Biz bütün bunları "vacibi vacib edən şey vacibdir" qaydası ilə müqayisədə "ehtiyaclar"dan hesab edə bilərikmi? Və ya biz bu hökmləri törəmə "məqsədlər" daxilindəmi öyrənməliyik? Biz düzgün təsnifat meyarlarına sahibikmi?

Aydındır ki, (Şəriətdə) əmrin özlüyündə mətləb olmağı qaydası "məqsədlər"in "zərurətlər", "ehtiyaclar" və "yaxşılaşdırıcılar" kimi təsnif edilməsində istifadə olunmuşdur. Düzgün sıralama və yerinə görə "məqsədlər"in müəyyənləşdirilməsini təmin edəcək digər qaydalar da mövcuddur. Bu qaydalar əmr və qadağaları, hüquq və vəzifələri, hətta Quran və Sünnədə hökmü göstərilməmiş bəzi davranış formalarını öyrənərkən lazım olur. Məqsəd bu sadalananları "məqasid" kateqoriyalarından birinə aid etməkdir. Həmin qaydaları aşağıdakı kimi xülasə etmək olar:

1) Quran və Sünnədən dəlilin olub-olmamağı və ya səhabələrə aid presedentin mövcudluğu, yaxud onların hər hansı bir işdə həmrəyliyi ("icma") bu və ya digər "məqsəd"in müəyyən edilməsi üçün baza rolunu oynayır. Dini mətn mövcud olduğu təqdirdə onun mənasının aydın olub-olmamağı, konkretlik və ya zənn ifadə etməsi, "möhkəm" və ya təfsir edilən, ümumi və ya "mütəşabeh"[1] olmağı – bütün bu xüsusiyyətlər[2] hökmün dərəcəsinin və aidiyyəti kateqoriyanın müəyyənləşdirilməsinə kömək edir.

2) "Məqsədlər"in müəyyənləşdirilməsinə kömək edən digər bir qayda əmrin aparıb çıxardığı "fayda"nı, yaxud dəf etdiyi "zərər"i

---

[1] **"Mütəşabeh" və "möhkəm":** Quran ayələrinə verilmiş adlar olub, birincisi mənası aydın və dəqiq olmayan, ikincisi isə konkret və aydın mənalı ayələri ifadə edir – ***tərcüməçinin qeydi.***

[2] Ətraflı məlumat üçün bax: Məhəmməd Haşim Kəmali. İslam fiqhinin prinsipləri. Kembric: "İslam dini mətnləri" cəmiyyəti, 1991 (ingilis dilində).

nəzərdən keçirməkdən ibarətdir. Bu, mövcud ictimai şəraitdə baş verən hər hansı bir şeydən irəli gələn fayda və zərərin rasional yolla müəyyənləşdirilməsini zəruri edir. Tədqiqatçı müəyyən etməlidir ki, ehtimal edilən fayda ümumidirmi, çox sayda insanı əhatə edirmi, taleyüklü məsələlərlə əlaqəlidirmi? Yoxsa, onun faydası az olub istənilən qədər deyildirmi? İdarəetmədə ədaləti bərqərar etmək, məsləhətləşməni gözləmək həyati məsələlərdəndir. Müqavilələrdə "bəxtəbəxt satış" (***bey`i-cüzaf***), "yaxşı borc" (***qərzi-həsən***) kimi məsələlər vardır ki, çox sayda insana səmərəsi toxunmur, həssas maraqlara təsir göstərmir. Amma hər hansı bir hökmü, fayda və ya zərəri isbatlamaq üçün Şəriətin məqsədinə bələd olmaq lazımdır. Özü də bunu hər bir vəziyyətdə həmin hökmü bilməklə müəyyən etmək mümkün deyildir. Bu vaxt köməyimizə araşdırma və ictihad gəlir[1].

3) Tədqiqatçı Beş Hökmlə[2] (vacib, məndub, məkruh, mübah, haram – hənəfilərdə isə bu say yeddidir; onlar buraya "təhrimi

---

[1] Əbdülhəmid ən-Nəccar. Ümmətin bugünkü problemlərinin həllində şəriətin məqsədlərinin aktivləşdirilməsi // "Şəriətin Məqsədləri" Beynəlxalq Konfransının (Kuala-Lumpur, 2006) materialları, birinci cild.

[2] Beş Hökm. Müsəlman hüquqşünaslarına görə dindəki məsələlərin beş hökm (dini status) kateqoriyası vardır:

1. **Vacib** – səhihliyi qəti, mənası da aydın olan hər hansı bir dini mətn (dəlil) əsasında müəyyən edilmiş öhdəlikdir. Ayə və "mütəvatir" hədislərdən ibarət bu dini mətnin məzmunu o dərəcədə açıq-aydın olmalıdır ki, müctəhidlər arasında heç bir mübahisə doğurmasın.

məkruh"[1] və "fərz"i əlavə edirlər) əlaqəli fiqhi araşdırma və fitvalara müraciət etməklə "məqsədlər"i üzə çıxarıb qruplaşdıra bilər. Həmçinin onun fəqihlərin haramlarla əlaqəli təsnifatı (böyük və kiçik günahlar) haqqında ədəbiyyatı mütaliə edib əlavə məlumat toplaması mümkündür. Bununla yanaşı, fəqihlərin islamın beş əsasına həsr etdiyi tədqiqatlarda faydalı məlumatlar tapmaq mümkündür. Bütün bunlar mənası aydın dəlillərə əsaslanır. Qeyd edək ki, adlarını çəkdiyimiz bir sıra kateqoriyalar (məndub, məkruh, kiçik günahlar (***səğair***) mahiyyətcə əxlaq məsələlərindən ibarətdir.

4) "Məqsədlər"i müəyyən etməyin bir başqa yolu müəyyən davranışlara görə Şəriətdə verilən cəzaları öyrənməkdir. Çünki bu cəzalar həmin davranışlara verilən qiyməti və bundakı məqsədi bizə izah edir. Erkən dövr alimlərinin "məqasid" mövzusunda "hədd" cəzalarını[2] tədqiq etmələri təbiidir. Namuslu qadınlara böhtan atmaq,

---

2. **Haram** – səhihliyi qəti, mənası da açıq-aşkar olan hər hansı bir dəlil (ayə və "mütəvatir" hədis) əsasında Allah və ya peyğəmbərinin öhdəçi şəxsə tərk etməsini əmr etdikləri əməllər, davranış və sözlərdir.

3. **Məndub** – edilməsini Allahın və ya peyğəmbərinin qəti şəkildə tələb etmədiyi şeydir. Edənə savab yazılar, etməyənə də cəza düşməz.

4. **Məkruh** – edilməməsini Allah və ya peyğəmbərinin qəti şəkildə tələb etmədiyi şeydir. Etməyənə savab yazılar, edənə də cəza düşməz.

5. **Mübah** – edilib-edilməməyi öhdəçi şəxsin ixtiyarına buraxılan şeydir. Haramlılığı barədə heç bir dəlilin olmadığı şeylər də mübahdır – ***tərcüməçinin qeydi.***

[1] Harama yaxın məkruh – ***tərcüməçinin qeydi.***

[2] **Hədd cəzaları**. Hərf. mane olma, ayırma, ayırıcı şey, sərhəd. Şəriətdə forması və məzmunu konkret olaraq göstərilmiş cəza növləri. Məsələn, zina, oğurluq, sər-

şərab içmək kimi günahlara verilən “hədd” cəzaları adamöldürmə və zinaya görə kəsilən “hədd” cəzalarından yüngüldür. Bu onu göstərir ki, birinci qrup “hədd” cəzaları ilə mühafizə edilən dəyərlər daha ağır cəzalarla qorunan dəyərlərlə müqayisədə aşağı dərəcəli “məqsədlər”i (ehtiyacları) ifadə edir. Əlavə edək ki, sərxoşedici içkilərin içilməsinə görə hansı cəzanın (bunlar “təzir” cəzalarıdır[1]) seçilməsi hakimin səlahiyyəti daxilindədir. Quranda bu cəzaların forması göstərilməyib[2].

5) Dini mətnlərdəki hər hansı bir hökmlə əlaqəli axirət mükafatı (***və`d***) və cəzasının (***vəid***) dərəcəsini nəzərə almaqla “məqsədlər”i müəyyən etmək mümkündür. Bu və ya digər əmələ görə axirətdə veriləcək mükafat həmin əməlin Allahın nəzdindəki “çəki”sini göstərir. Bu məqsədlə xüsusi dini mətnlərdə bunu təsdiqləyən dəlillər tapılmalıdır. Bəzən dini mətndə əsas "məqsədlər"dən biri haqqında danışılır, bəzən də təxmini məlumat verilir. Bunun üçün biz hökmü müəyyən edən dini mətni əsas götürməli, Quran və hədisləri düzgün öyrənməliyik. Buna misal olaraq, valideynə yaxşılıq etmənin savabı-

---

xoşluq, namuslu qadınlara iftira kimi günahlar üçün konkret cəza formaları vardır – ***tərcüməçinin qeydi.***

[1] **Tə`zir.** Hərf. mane olma, tərbiyə etmə, ədəb vermə. Allah və Peyğəmbər tərəfindən qoyulmamış cəza növləri nəzərdə tutulur. Fəqihlər bu növ cəzaların “qiyas” əsasında müəyyənləşdirilməsi barədə həmrəydirlər. Tə`zir cəzaları hədd və qisas cəzalarından fərqli olaraq ölkə başçısı və ya şəriət hakimi tərəfindən müəyyən olunur – ***tərcüməçinin qeydi.***

[2] Məhəmməd Haşim Kəmali. İslam şəriətində cəzalandırma: Klanton Cəza hüququna baxış. Kuala-Lumpur: “əl-Elmi”, 2000, səh. 41-42.

nın çox, üzünə ağ olmağın cəzasının isə şiddətli olmağını göstərə bilərik. Və ya hədisdə deyilir ki, kim Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* adından qəsdən yalan uydurarsa, ağır cəza alacaqdır. Hər iki misalda məqsəd aydındır. Bu, "zəruri məqsədlər"lə əlaqəli ola bilər. Belə ki birincini "ailəni və ya əsil-nəcabəti qorumaq", ikincini isə "dini qorumaq" kateqoriyasına daxil edə bilərik. Hər iki cəzanı həyat yoldaşına, ailəsinə zəruri ehtiyaclardan əlavə xərclik verən, yaxud heyvan və quşları yemləyən şəxsə veriləcək mükafatla müqayisə edək. Ailə üçün xərcləməkdə məqsəd ailədaxili sevgini gücləndirməkdir. Bəlkə də, bu, "ehtiyac xarakterli məqsəd"dir. Heyvanları sevmək isə bundan aşağı dərəcəlidir, yəni "yaxşılaşdırıcı" işlərdəndir.

Bəzi hədislərdə heyvanları sevmək məsələsinə geniş yer ayrılıb. Bir hədisdə pişiyini ac və bağlı yerdə saxlayan qadına (axirətdə) veriləcək ağır cəzadan danışılır. Həmçinin səhrada susuzluqdan ölmək həddinə çatmış köpəyin həyatını xilas etmiş şəxsə böyük savab vəd edilmişdir. Sayı heç də az olmayan hədislərdə deyilir ki, kiçik görünən işlərə görə böyük savab yazılacaqdır. Məsələn, buraya müəyyən vaxtda müəyyən ayəni oxumaq daxildir. Bəzən hədisdə səbəb göstərilir. Əməlin qiymətləndirilməsi çox vaxt rəmzi olur. Çünki vurğu əməlin özünə deyil, onunla əlaqəli mənaya edilir. Həmin əməl onu edənə rəhmdillik, şəfqət aşılaya bilir. Hər hansı bir əmələ görə verilən savabın müxtəlif şəkillərdə ifadə edilməsi insanda çox vaxt həmin əməli işləmək həvəsi

yaradır. Həmçinin bunun sayəsində insan vəzndə yüngül gələn əməllərin qiymətcə ağır olmağına diqqət yetirir. Bu səbəbdən alimlər deyirlər ki, bəzi hədislərin deyilmə məqsədi onlarda göstərilmiş mükafat və ya cəzanı diqqətə çatdırmaq deyildir[1].

Yuxarıdakı misallardan başa düşülür ki, minimum "məqsəd" bir çox xüsusi hallarda maksimum həddə yüksələ bilir. Bu o vaxt baş verir ki, "məqsəd"lə əlaqəli konkret vəziyyət ağır böhran və ya insan həyatını riskə atan təhlükə ifadə etsin. Belə olan halda tədqiqatçı tədqiqat obyekti olan "məqsəd"i mövcud şəraitlə əlaqələndirməlidir. Hər hansı bir canlını ölümdən xilas etdiyimizdə görürük ki, yaxşılaşdırıcı sayılan hərəkət zərurət müstəvisinə yüksəlir. Amma bu o demək deyildir ki, biz heyvanlarla şəfqətli davranmağı "yaxşılaşdırıcı" əməllərdən hesab edən mövqeyimizi dəyişdirmiş oluruq.

6) Hər hansı bir hökmün dəyərini onun Quran və Sünnədə işlədilmə intensivliyini nəzərə almaqla müəyyən etmək, bununla da onda ifadə edilmiş məqsədi (qayəni) üzə çıxarmaq mümkündür. Məsələn, Quran və hədislərdə tez-tez rəhmdillik, səbir, ədalət dəyərləri haqqında danışılır. Düzdür, təkrarların çoxluğu vacib və haramla əlaqəli məsələlərə təsir göstərmir. Amma təkrarların çoxluğunun əxlaq, məndub və məkruh məsələlərdə əhəmiyyəti böyükdür.

[1] Əbdülhəmid ən-Nəccar. Ümmətin bugünkü problemlərinin həllində şəriətin məqsədlərinin aktivləşdirilməsi // "Şəriətin Məqsədləri" Beynəlxalq Konfransının (Kuala-Lumpur, 2006) materialları, birinci cild, səh. 26-27.

Əgər ayə və hədisdə hər hansı bir işin haram və ya vacib olmağı haqqında qəti şəkildə məlumat verilibsə, həmin işin haram və ya vacib olduğuna bir daha əmin olmaq üçün başqa ayə və hədislərə müraciət etmirik. Amma hənəfi fəqihləri əmrin təkrarındakı saya əhəmiyyət verirlər. Onlar "vacib"i "fərz" adlandırdıqları şey səviyyəsinə qaldırırlar. Və ya hənəfi fiqhində "məkruh" "təhrimi məkruh" adlandırılan statusa (harama yaxın məkruh) qədər "genişlənə" bilir[1]. Əxlaqla əlaqəli bu kimi vəziyyətlərdə "təkrar" amili Şəriətin konkret əmrləri ilə müqayisədə daha mühümdür.

[1] Ətraflı məlumat üçün bax: Məhəmməd Haşim Kəmali. İslam fiqhinin prinsipləri. Kembric: "İslam dini mətnləri" cəmiyyəti, 1991 (ingilis dilində).

## “Məqsədlər” və ictihad

İmam Şatibi özünün “məqasid” nəzəriyyəsini izah etdikdən sonra bildirmişdi ki, Şəriətin məqsədlərinə vaqif olmaq müctəhid adını qazanmaq üçün müqəddəm şərtdir. Kim ki “məqsədlər” haqqında kafi biliyə sahib deyil, ictihadları səhv çıxacaqdır. Bu hal bidət əhlinin başına gəlmişdir. Onlar Quranın zahiri məzmununu əsas götürmüş, məğzi və məqsədləri üzərində düşünməmişdilər. Bidət əhli (Burada Şatibi əsasən xariciləri nəzərdə tutur) Qurandakı mütəşabeh ayələrdən ikiəlli yapışmış, onları öz prinsip və ideyalarına uyğun şəkildə izah etmiş, Qurana kompleks yanaşmadıqları üçün bir-biri ilə əlaqəli ayələri vəhdətdə götürə bilməmişdilər. Böyük alimlər isə Şəriəti bir bütöv olaraq nəzərdən keçirmişlər. Onlara görə, təfsilatlı hökmlər böyük prinsip və məqsədlər əsasında öyrənilməlidir[1].

“Məqasid” mövzusunu araşdırmış məşhur alimlərdən Tahir ibn Aşur “İslam şəriətinin məqsədləri” kitabında qeyd edir ki, hər sahədə ictihad etmək üçün “məqsədlər”i bilmək lazımdır[2]. İbn Aşur göstərmişdir ki, bəzi alimlər ictihad edərkən dini mətnləri hərfi-hərfi-

[1] Əbu İshaq İbrahim əş-Şatibi. Şəriətin ana məsələlərində uyğunluqlar (əl-Müvafəqat fi üsul əş-şəriət) / çapa hazırlayan: Şeyx Abdullah Draz. Qahirə: “əl-Məktəbə ət-ticariyyə əl-kübra” (nəşr tarixi göstərilməyib), IV cild, səh. 179.

[2] Məhəmməd ət-Tahir ibn Aşur. İslam şəriətinin məqsədləri. Tunis: “əl-İstiqamət”, 1966, səh. 15-16.

nə başa düşmüş, nəticədə Quranı şəxsi görüşləri əsasında izah etmiş, dini mətnlərin başlıca məğzi və real şəraitdən uzaq düşdükləri üçün səhvə yol vermişlər[1]. Bunu alimlərin zəkatla əlaqəli fərqli-fərqli görüşlərinin xülasəsini verməklə izah etmək mümkündür. Əgər zəkat buğda və xurma kimi məhsullara düşürsə, onda onu eyni kateqoriya məhsullardan və ya dəyərinə müvafiq puldan da çıxmaq mümkündür. Hənəfilər bu vəziyyətdə zəkatın pulla verilməsinin mümkünlüyünü irəli sürmüşlər. İmam Şafei (vəfatı – 820) bu məsələdə onlara qarşı çıxmışdır. Hənəfilərin rəyi belə bir məntiqə söykənir ki, zəkatda məqsəd kasıbın tələbatını təmin etmək olduğundan bunu zəkat veriləcək məhsulun dəyərinə müvafiq pulla da həyata keçirmək olar. Fitr sədəqəsi ilə əlaqədar olaraq, İbn Qəyyim əl-Cövziyyə bildirmişdi ki, bir hədisdə kasıblara xurmanın, digərində isə kişmiş və ya dənli məhsulların verilməsi haqqında danışılır. Bu məhsullar mədinəlilər və ətraf sakinlərin yeməyi idi. Bu qidalardan hər hansı birinin verilməsində məqsəd kasıbların ehtiyacını ödəməkdir olmuşdur. Deməli, məqsəd kasıblara yeməyi müəyyən formada vermək deyildir[2].

---

[1] Yenə orada, səh. 27.

[2] Həmçinin bax: İbn əl-Qəyyim əl-Cövziyyə. Aləmlərin rəbbi adından yazanlara bildiriş (E`lam əl-müvəqqəin ən rəbb əl-aləmin) / tədqiq edib çapa hazırlayan: Məhəmməd Münir əd-Diməşqi. Qahirə: "əl-Münirіyyə" (nəşr tarixi göstərilməyib), III cild, səh. 12; Əhməd ər-Rəysuni. İmam Şatibinin "məqasid" nəzəriyyəsi. Ribat: "ən-Nəcah", 1991, səh. 336.

İmam Malikə (vəfatı – 795) sual verirlər ki, əgər bir şəxs il tamam olmadan zəkatını çıxıbsa, ilin sonunda ikinci dəfə zəkat verməlidirmi? İmam Malik deyir ki, verməlidir. O bunu vacib namazla müqayisə etmişdir. Belə ki vacib namazları vaxtı girmədən qılmaq olmaz. Yəni, kimsə vacib namazı vaxtından əvvəl qılsa, vaxtı girdiyində onu yenidən qılmalıdır. Amma İmam Malikdən sonra yaşamış maliki fəqihləri, o cümlədən İbn əl-Ərəbi (vəfatı – 1148) və İbn Rüşd (vəfatı – 1126) bu görüşlə razılaşmayaraq bildirmişlər ki, namaz zəkatdan fərqlidir. Belə ki namaz konkret vaxtla əlaqəli ibadətdir, amma zəkat haqqında bunu demək olmaz. Bu səbəbdən (ilin başlanmasından) bir neçə həftə keçməyi gözlədikdən sonra zəkatı vermək caizdir[1].

Əhli-hədis alimləri Əbu Hənifəni tənqid etmişlər ki, hədisin mətnini əsas götürməyib. Amma məsələni diqqətlə öyrəndikdə görürük ki, Əbu Hənifə hədisdə ifadə olunmuş hökmdən imtina etməmişdir; əksinə, o, Quran və hədislərdəki digər dəlillərə əsaslanaraq bu məsələdə başqa bir hökmün mövcud olduğu qənaətinə gəlmişdi.

Müctəhidlər və qazılar mübahisəli mövzular haqqında bəzən elə fitvalar vermişlər ki, sonralar onların Şəriətin məqsədlərinə uyğun düşmədiyi məlum olmuşdur. Müqavilələrə dair verilən bəzi fitvalar bu qəbildəndir. Bəzən elə olur ki, tərəflər müqaviləni imzalayır və

---

[1] Əhməd ər-Rəysuni. İmam Şatibinin “məqasid” nəzəriyyəsi. Ribat: “ən-Nəcah”, 1991, səh. 338-339.

müqavilə qüvvəyə minir. Sonra mövcud vəziyyət dəyişib, gözlənilməz hallar baş verdiyindən müqavilənin şərtləri tərəflərdən birinin əleyhinə çevrilir. Elə isə müctəhid müqavilələrdə bu kimi dəyişiklikləri nəzərə almalı, vəziyyət dəyişdikdə müqavilənin formal iltizam səbəbi ilə olduğu kimi saxlanılmasına göz yummamalıdır. Müqavilə belə vəziyyətlərdə tərəflərdən birinin hüquqlarının tapdanmasına səbəb olarsa, qanuni sayıla bilməz; söz ədalətə buraxılmalıdır. Çünki Şəriətdə məqsəd ədalətdir. Davam etdirilməyə layiq olmayan müqavilıni qüvvədə saxlamaqdansa, ədaləti əsas tutmaq daha üstün davranışdır[1]. Bəzən Şəriətin ali məqsədlərindən biri fəqihin qiyas əsasında çıxardığı hökmə zidd düşür. Əgər bu yerdə fəqih qiyasdan[2] kortəbii şəkildə ikiəlli yapışarsa, nəticə məqbul olmayacaqdır. Bu vaxt fəqih "istehsan"[3] üsuluna müraciət etməlidir ki, alternativ hökm Şəriətin məqsədlərinə daha çox uyğun gəlsin[1].

---

[1] Vəhbə Züheyli. İslam fiqhi və dəlilləri. Dəməşq: "Dar əl-fikir", 1989, IV cild, səh. 32; Məhəmməd Haşim Kəmali. İslam fiqhinin prinsipləri. Kembric: "İslam dini mətnləri" cəmiyyəti, 1991, səh. 225 (ingilis dilində).

[2] **Qiyas**. Hərf. müqayisə. Ayə və hədislərdə izahını tapmış oxşar məsələlərin müqayisəsini aparmaqla Quran və Sünnədə münasibətin bildirilmədiyi bir məsələ haqqında hökm çıxarmaq – ***tərcüməçinin qeydi.***

[3] İstehsan. Hərf. hər hansı bir şeyi xoş bilmə, xoşa gələni seçmə, bəyənmə, bəyənib seçmə. Bu və ya digər məsələ haqında çıxarılmış hökmlərdən birini asanlıq məqsədilə seçməkdir. Yəni, İstehsan üsulu mövcud dəlillərdən (hökmlərdən) könülə xoş gələnini seçməyi ifadə edir. Bir çox fəqihə görə, istehsan xüsusi iddialarla qiyasdan, ümumi və ənənəvi qaydalardan imtina etməklə vəziyyətin, hadisənin səciyyəviliyinə münasib həll yolu tapmaq deməkdir. İmam Şafeiyə görə, "istehsan" dəlil deyildir. Bununla da o, istehsanı dəlil seçən maliki və hənəfi məzhəblərinin

Fəqihlər verilən hökmün doğuracağı nəticəyə də diqqət yetirməlidirlər. Əgər müctəhid verdiyi hökmün nə ilə nəticələnəcəyini nəzərə almazsa, fitva və ya ictihad müvəffəqiyyətli olmayacaqdır. Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* veriləcək hökmün nə ilə nəticələnəcəyini həmişə nəzərə almışdır. Məsələn, bəzi münafiqlər dağıdıcı fəaliyyətlə məşğul olduqları üçün səhabələr belə güman etmişdilər ki, Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* onları cəzalandıracaqdır. Amma Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* bunu etməmiş və demişdir: "İnsanların: "Məhəmməd səhabələrini öldürür", – deməlvarindən ehtiyatlanıram"[2].

Həmçinin Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* Kə`bəni söküb İbrahim peyğəmbərin tikdiyi bünövrə üzrə yenidən inşa etmək fikrindən vaz keçmişdir. Belə ki Cahiliyyət dövründə məkkəlilər Kə`bəni Həzrəti İbrahim qoyduğu özüldən kənarda tikmişdilər. Həzrəti Aişə soruşanda ki, ey Allahın elçisi, nə üçün Kə`bəni Həzrəti İbrahimin qoyduğu özül üzərində tikmirsən, Peyğəmbər *(Ona Allahın xeyir-*

---

mövqeyini qəbul etməmişdir. O, "istehsan" qaydasına dair tənqidlərini "İbtal əl-istehsan" ("İstehsan"ı təkzib) adlı kitabında toplamışdır. Hənəfilərə görə isə istehsan nəfsi istəyin arxasınca qaçmaq deyildir; istehsan – hökmü bir görüşdən digərinə keçirməkdir; bir məsələ barədə mövcud olan bir-neçə fikirdən birini seçmək; ümumi mənafe və ədaləti əsas tutub münasib görüşə meyl etmək; hökmü bir görüşdən digərinə keçirmək – ***tərcüməçinin qeydi.***

[1] Məhəmməd Haşim Kəmali. İslam fiqhinin prinsipləri. Kembric: "İslam dini mətnləri" cəmiyyəti, 1991 (ingilis dilində).

[2] Hədisi İmam Buxari rəvayət etmişdir.

*duası və salamı olsun!)* demişdi: "Qüreyşdən ehtiyatlanmasaydım, bunu edəcəkdim. Axı onlar yenicə müsəlman olublar"[1].

Hər iki misalda Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* başqalarına məntiqli görünən işi etməmişdir: münafiqləri öldürmək, Kə`bəni Həzrəti İbrahimin qoyduğu bünövrə üzərində tikmək. Amma o bunların doğuracağı mənfi nəticəni nəzərə almışdır.

Cəzalandırma tələb edən cinayətə və ya qanun pozuntusuna yol verən şəxsi cəzalandırmaq cinayət və qanun pozuntuları sahəsində təbii hərəkət hesab olunur. Amma cinayətkarı əfv etmənin daha münasib olduğu vəziyyətlər də vardır. Qazı və ya müctəhid belə vəziyyətləri düzgün qiymətləndirməli, hökm verərkən nəzərə almalıdır. İmam Şatibi bu məsələni tədqiq etmiş, ümumi səbəbi xüsusi səbəbdən düzgün şəkildə fərqləndirmişdir. Ümumi səbəb (vəziyyət) budur ki, müctəhid onun əsasında müəyyən hökm verir. İkinci səbəb isə müctəhidin hökm çıxarmadan əvvəl nəzərə alacağı vəziyyəti ifadə edir. Ola bilsin ki, müctəhid ümumi səbəbi əsas götürsün, bütün diqqətini ona versin. Hər hansı bir şəxsin zəkat almağa, şahidlik etməyə layiq olmağı məsələsi buna misaldır. Amma ənənəvi hökmün müəyyən vəziyyətlərdə münasib olub-olmadığını tədqiq edərkən müctəhiddən müəyyən problemlə əlaqədar xüsusi hökmü tətbiq

[1] Hədisi İmam Malik rəvayət etmişdir. Həmçinin bax: Əhməd ər-Rəysuni. İmam Şatibinin "məqasid" nəzəriyyəsi. Ribat: "ən-Nəcah", 1991, səh. 354.

etmək tələb oluna bilər. Bu o deməkdir ki, müctəhid təkcə Şəriət hökmlərinə, öyrəndiyi mövzu ilə əlaqəli dəlillərə vaqif olmamalı, həm də hökm verərkən müdrik və uzaqgörən davranmalıdır. Belə olduqda verdiyi hökm ümumi və xüsusi vəziyyətlərdə səmərəli olacaqdır[1].

---

[1] Əbu İshaq İbrahim əş-Şatibi. Şəriətin ana məsələlərində uyğunluqlar (əl-Müvafəqat fi üsul əş-şəriət) / çapa hazırlayan: Şeyx Abdullah Draz. Qahirə: "əl-Məktəbə ət-ticariyyə əl-kübra" (nəşr tarixi göstərilməyib), IV cild, səh. 97.

# Nəticə

Şəriətin məqsədləri, heç şübhəsiz, ayə və hədislərdə göstərilmiş dəlillərə əsaslanır. Bununla yanaşı, onları dini mətnlərdəki ümumi məzmun və mətləb əsasında müəyyənləşdirmək mümkündür. Bu vaxt ayə və hədislərdə əsas diqqət sözlərə və cümlələrə deyil, qayə və məqsədə verilməlidir.

Texniki-metodoloji xırdalıqların, dini mətnlərə hərfi-hərfinə münasibətin (problemlərin həllini) qəlizləşdirməsi baxımından Şəriətin məqsədləri Fiqhin əsaslarından fərqlənir. Yəni, "məqsədlər" təşviq edir ki, dini mətnlər daha düzgün, daha hərtərəfli öyrənilsin.

"Məqsədşünaslıq" bir çox cəhətinə görə özünəməxsus sahədir. Bu sahədə zaman və məkan amili ilə əlaqəli incə məqamlar nəzərə alınır. Amma Fiqhin əsasları elmində icma, qiyas, ictihad kimi bəzi əsas üsullar bəzən müasir müsəlman cəmiyyətlərində mövcud ictimai-siyasi şəraitə uyğun gəlmədiyindən vəziyyəti qəlizləşdirir. Şəriətlə münasib və dinamik əlaqə yaratdığı üçün "məqasid" təlimi özünəməxsusluğu ilə seçilir.

Şəriətin əsas məğzini başa düşmək təfsilatlı məsələlərə keçməzdən əvvəl atmalı olduğumuz başlıca addımdır. "Məqasid" təliminə vaqif olmaq Şəriət elmləri ixtisası üzrə təhsil alanları bəsirətli (gözüaçıq) edəcək, daha mənalı, daha maraqlı üsulla müxtəlif Şəriət elmlərinə dair təfsilatlı biliklər əldə etmələrinə imkan verəcəkdir.

# MÜNDƏRİCAT

Ön söz....................................................................................................3

Şəriətin məqsədləri islam qanunvericiliyinin məqsədləri deməkdir.....5

Şəriətin məqsədləri ilə əlaqəli dini mətnlər...............................................6

"Məqsədlər"in təsnifi......................................................................11

"Məqsədşünaslığ"ın tarixi..................................................................20

“Məqsədlər”in müəyyən edilməsi...........................................................28

Bəzi metodoloji problemlər...................................................................35

“Məqsədlər” və ictihad........................................................................44

Nəticə........................................................................................................51

İDRAK